2024

AZƏRBAYCAN
**SIĞORTAÇILAR**
ASSOSİASİYASI

# Bülleten
# MART

## ASA-da millət vəkili, TürkPA-nın üzvü Hikmət Məmmədovla görüş keçirilib



Görüşdə ASA-nın İcraçı direktoru Elmar Mirsalayev sektorda aparılan islahatlar barədə məlumat verib və Türk Dünyası Sığorta Birliyi haqqında danışıb.



Milli Məclisin deputatı, TürkPA-da Azərbaycan nümayəndə heyətinin üzvü Hikmət Məmmədov sığorta sektorunda görülən işləri yüksək qiymətləndirib. Millət vəkili bildirib ki, Türk Dünyası Sığorta Birliyinin yaradılması türk dövlətlərinin birgə dayanıqlı inkişafı üçün önəmli hadisədir.

## "Sığortaçılarda korporativ idarəetmə standartları" mövzusunda seminar keçirilib





Azərbaycan Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə sığorta şirkətlərinin rəhbərləri üçün "Sığortaçılarda korporativ idarəetmə standartları" mövzusunda seminar keçirilib.

Seminar Mərkəzi Bankının Baş direktoru Ziya Əliyevin moderatorluğu ilə baş tutub. Seminarda korporativ idarəetmə standartlarının mahiyyəti və onun sektorun maliyyə sabitliyinin gücləndirilməsi və inkişafı baxımından vacibliyi müzakirə edilib. Sığorta şirkətlərində direktorlar şurasının rolu, vəzifələri, sığortaçılarda risklərin idarə olunması sistemi, risk idarəetməsi üzrə müdafiə xətləri, habelə onu təşkil edən strukturların funksiyaları, müvafiq idarəetmə prosesləri və digər bu kimi aktual məsələlər də seminarın başlıca müzakirə mövzusu olub.

## ASA-da Milli Məclisin deputatı Azər Badamovla görüş keçirilib



Görüşdə ASA-nın İcraçı direktoru Elmar Mirsalayev sığorta sektorunda aparılan islahatlar və əldə olunan nailiyyətlər barədə məlumat verib, habelə Türk Dünyası Sığorta Birliyinin fəaliyyəti haqqında da danışıb.

Millət vəkili Azər Badamov öz çıxışında sığorta sektorunda görülən işləri, həyata keçirilən islahatları və əldə olunan nəticələri yüksək qiymətləndirib. Deputat, sığorta sektoru-parlament arasında dialoqu inkişaf etdirmək və nəticə etibarilə sektorun inkişafını stimullaşdırmaq məqsədilə Milli Məclisin iqtisadiyyatyönümlü komitələrinin üzvləri ilə sığorta bazarı iştirakçıları arasında yaxın vaxtlarda "Ümumi müzakirə" formatlı tədbirin keçirilməsini də təklif etdi.

## Azərbaycan və Türkmənistan ilk dəfə sığorta sahəsində əlaqələr quracaq

ASA-nın icraçı direktoru Elmar Mirsalayev Türkmənistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmed Elyasov ilə görüşüb.

Görüşdə Azərbaycan-Türkmənistan dövlətləri arasında müxtəlif sahələr üzrə mövcud olan qarşılıqlı münasibətlərə toxunulub və iki ölkə arasında sığorta sahəsində qarşılıqlı əlaqələrin ilk dəfə qurulacağı vurğulanıb.



Görüşdə yaxın vaxtlarda Türk Dövlətləri Təşkilatının himayəsinə daxil olacaq Türk Dünyası Sığorta Birliyi haqqında da danışıb. Türkmənistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmed Elyasov Türk Dünyası Sığorta Birliyinin fəaliyyətini yüksək qiymətləndirib.

ASA ilə Türkmənistanın sığorta sektoru arasında əlaqələrin qurulması yönündə razılıq əldə olunub.

## ASA "Aqrobiznesin İnkişafı Forumu"nda iştirak edib

Qubada Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin təşkilatçılığı ilə "Aqrobiznesin İnkişafı Forumu" keçirilib.



ASA-nın da dəvətli olduğu Forumda Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov, Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Ömer Kocaman, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov, Azərbaycan Mərkəzi Bankının sədr müavini Əliyar Məmmədyarov, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov və digər rəsmilər iştirak ediblər.

## Ukraynada müharibə riskindən sığorta sistemi yaradılacaq



Ukraynanın Maliyyə Sabitliyi Şurası müharibə riskindən sığorta sisteminin yaradılması ilə bağlı təklif hazırlayıb. Dünya Bankı, Ukrayna Milli Bankı, Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyinin ekspertlərinin iştirakı ilə hazırlanmış sistem mərhələli şəkildə tətbiq ediləcək. Bu model yerli sığortaçıların, beynəlxalq təkrarsığortaçıların və yaradılacaq dövlət qurumunun iştirakı ilə işləyəcək. Ukraynada sərmayələrin müharibə risklərindən sığortalanması planının 2024-cü ilin ikinci rübündə qüvvəyə minməsi planlaşdırılır.

## Yaxın Şərqdəki gərginliyə görə sığorta yığımlarının həcmi azala bilər



“OAC” aktuar konsaltinq şirkəti tərəfindən dərc edilən hesabata görə, Yaxın Şərqdə siyasi ab-hava qeyri-sabitlik və gərginlikdən ən çox təsirlənəcək sığorta məhsulları nəqliyyat sığortası, müharibə riski sığortası, siyasi risk sığortası və debitor borcların sığortasıdır. Belə ki, Yəmən sahillərində davam edən hücumlar su nəqliyyat vasitələrinin sığortası və daşıma xərclərinə təsir edir. Hesabatda vurğulanan digər məsələ isə hava nəqliyyatının kəsilməsidir. Regionda davam edən münaqişə səbəbindən Avropa və Asiyanı birləşdirən hazırkı münaqişəsiz dəhlizlərin daha da daralması ehtimalı var.

## TSEV-yə yeni müdir təyin olundu



Türkiyə Sığorta İnstitutu Vəqfinin (TSEV) İdarə Heyəti Şəbnəm Yalçınkayanı Vəqfin müdiri vəzifəsinə təyin edib. Ş.Yalçınkaya 4 mart tarixindən vəzifəsini icra etməyə başlayıb. O, Xəzinədarlıq və Maliyyə Nazirliyinin Sığorta Nəzarəti Şurasında “Sığorta Auditi Aktuarisi” vəzifəsində çalışıb. Marmara Universiteti Sığorta və Bankçılıq Məktəbi Aktuar Magistr Proqramında dərs deyib. Ş.Yalçınkaya Azərbaycanda həyata keçirilən “Aktuar İnkişaf Proqramı”nda iştirak edir.

## Türkiyədə sığortaçılar inflyasiya uçotuna keçid edir

Türkiyədə sığortaçıların, təkrarsığortaçıların və pensiya şirkətlərinin inflyasiya uçotuna keçid edəcəyi tarix bəlli oldu. Türkiyənin Sığorta və Fərdi Pensiya Nəzarət və Tənzimlərə Kəmitəsinin qərarına görə, 1 yanvar 2025-cü il tarixdən etibarən sığorta bazarı iştirakçıları inflyasiya uçotuna keçid ediləcəklər.

QROUP
SIĞORTA ŞİRKƏTİ

## "A-Qroup Sığorta Şirkəti" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***7 533 AZN***





AtəşgahSığorta

## "Atəşgah" Sığorta Şirkəti ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***28 003 AZN***

XalqSığorta
Biz varıq!

## "Xalq Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***83 478 AZN***







İPƏK YOLU SIĞORTA

## "İpək Yolu Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***2 280 AZN***

"Qala Həyat Sığorta" ASC

*Sığorta növü: İpoteka krediti*
*Sığorta hadisəsi: Müddətsiz əlillik (Bədbəxt hadisə nəticəsində)*
*Sığorta məbləği:* ***49 538,20 AZN***





"Meqa Həyat Sığorta" ASC

*Sığorta növü: Kredit götürən şəxslərin həyat sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın vəfat etməsi*
*Sığorta məbləği:* ***6 281, 38 AZN***

"Meqa Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***18 776 AZN***





"PAŞA Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yanğın hadisəsi*
*Sığorta məbləği:* ***11 826 AZN***

## “PAŞA Sığorta” və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə tədbir keçirilib




“PAŞA Sığorta”nın maliyyə dəstəyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tərəfdaşlığı ilə ABŞ və Azərbaycanda qeydiyyatdan keçmiş “For Azerbaijan” Beynəlxalq təşkilatının həyata keçirdiyi “Azərbaycanda Psixoloji Reabilitasiya İmkanlarının Artırılması” (APRİA) layihəsi çərçivəsində “PTSP hallarında Yazılı Ekspozisiya Terapiyası” kitabının və “CPT Coach” Mobil Tətbiqin təqdimat mərasimi keçirilib.

Tədbirdə “PAŞA Sığorta” şirkətinin İdarə Heyətinin sədri Ülviyyə Cabbarova ilə bərabər İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, Milli Məclisin deputatı Nigar Arpadarai, “For Azerbaijanın”nın qurucu üzvü Ülviyyə Zeynalova-Boçkin, Psixi Sağlamlıq Mərkəzinin rəhbəri Fuad İsmayılov iştirak ediblər. Çıxış edən şəxslər layihənin vacibliyini, Azərbaycanda ilk dəfə tətbiq olunan yeni müalicə növlərinin effektivliyini, layihə nəticələrinin dövlət və elmi dairələr tərəfindən tətbiqinin perspektivlərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## “Meqa Sığorta” və “Meqa Həyat Sığorta” şirkətlərinin sponsorluğu ilə Vergi və Mühasibatlıq Zirvəsi keçirilib




16 mart tarixində “Facemark” və “Good Finance “-in təşkilatçılığı, “Meqa Sığorta” ASC və “Meqa Həyat Sığorta” ASC-nin sponsorluğu ilə ölkəmizdə ikinci dəfə Vergi və Mühasibatlıq Zirvəsi baş tutdu. Tədbir Maliyyə hesabatları və uçotu, Vergi Məcəlləsi -2024 və Vergi riskləri panellərindən ibarət olub.

Tədbirə qatılan hər bir iştirakçı vergi və mühasibat uçotunun inkişafı istiqamətində təcrübə mübadiləsi ilə peşəkar biliklər əldə etdi, bununla yanaşı musiqi ziyafətindən böyük zövq aldılar.

Dəyərli ekspertlərin çıxışları bu sahədə çalışan mütəxəssislər üçün yeni trendləri izləmək üçün əvəzolunmaz fürsətlər yaratdı.

Tədbirin sonunda müsabiqədə iştirak edən iştirakçılar “Meqa Sığorta” ASC tərəfindən kasko sığortasına 200 manat məbləğində endirim kartı və digər dəyərli hədiyyələr qazandılar.

# "Atəşgah Həyat" Sığorta Şirkəti ASC – 26

Azərbaycanda ilk həyat sığortası şirkəti olan "Atəşgah Həyat" Sığorta Şirkəti 1998-ci ilin 12 mart tarixində təsis edilmiş və Azərbaycan Respublikasının "Sığorta haqqında" Qanununun yeni tələblərinə uyğun olaraq həyat sığortası üzrə xidmətləri təqdim etmək üçün 2008-ci ilin dekabr ayında qeydiyyatdan keçmişdir.

Şirkət həyat sığortası üzrə həyatın müddətli sığortası, yığım sığortası, kredit həyat sığortası, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari həyat sığortası və sağalmaz xəstəliklərdən sığorta xidmətlərini təklif edir. "Atəşgah Həyat" SŞ sığorta xidmətlərini həm fiziki, həm də hüquqi şəxslərə təqdim edir.

Şirkətin müştəriləri sırasında BP, Statoil, Azeri M.I. Drilling kimi iri şirkətlər, Azercell, Bakcell, Azerfon kimi GSM operatorlar və digərləri vardır.

"Atəşgah" Sığorta Qrupuna daxil olan bir şirkət olaraq, "Atəşgah Həyat" SŞ öz xidmətlərini Bakıda fəaliyyət göstərən on üç ofis, habelə Sumqayıt, Gəncə, Lənkəran, Şəki, Xaçmaz, Mingəçevir, İsmayıllı, Salyan, İmişli və Bərdə şəhərlərində fəaliyyət göstərən ofislər vasitəsilə təqdim edir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

"Atəşgah Həyat" Sığorta Şirkəti ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.

AtəşgahSığorta
HƏYAT SIĞORTASI



# "PAŞA Sığorta" ASC – 18

"PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti Azərbaycanın sığorta xidmətləri bazarında tanınmış liderlərdən biridir. Şirkət 15 mart 2006-cı il tarixdə təsis edilib. Hazırda şirkətin nizamnamə kapitalının həcmi 50 milyon manatdır və 300 minə yaxın korporativ və fərdi müştərisinə 36 növ könüllü və icbari sığorta üzrə xidmət göstərir. Kapitalın bu cür yüksək səviyyəsi "PAŞA Sığorta" şirkətinə öz sığorta öhdəliklərini əminliklə yerinə yetirməyə zəruri maliyyə imkanı yaradır və onun ödəmə qabiliyyətliliyinə zəmanət verir. "S&P Global Ratings" qlobal reytinq agentliyi "PAŞA Sığorta" ASC-nin emitentin uzunmüddətli kredit reytinqini və maliyyə dayanıqlığı reytinqini "BB" səviyyəsində, reytinq üzrə proqnozun üzrə "Müsbət"ə keçdiyini təsdiqləyib. "PAŞA Sığorta" ASC Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 2016-cı il 12 oktyabr tarixli 476 nömrəli lisenziyası əsasında fəaliyyət göstərir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

"PAŞA Sığorta" ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.



ASA
AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI